# "Qaçaqaç"ın müəllifinə cavab məktubu

**Əziz yazıçımız Seyran Səxavət!**

Mən Sizin "Azərbaycan" jurnalının 2015-ci ildə çıxan 4-cü sayında çap olunan "Qaçaqaç" tarixi roman-memuarınızın dostluq haqqında möhtəşəm abidə olan, şəklinizdəki deminizin acı tüstüsü hopan bölümünü kəskin xroniki astma xəstəsi olsam da birnəfəsə oxudum. Yalnız təlatümlü ürəyinin səsini eşidən, həmişə həqiqət axtarışında olan, həqiqəti hər şeydən üstün tutan sevimli sənətkarımız kimi sizin hər yeni əsərinizi oxuyarkən düşünürəm - nə yaxşı ki, bizim uğurlu-uğursuz, məntiqi-qeyri məntiqi, aşikar-gizli gedişlərimizi həm taleyimiz, həm də qələminə inanıb böyük ümidlərlə baxdığımız, həsrətlə hər yeni əsərinin yolunu gözlədiyimiz Seyran Səxavət yazır.

Bu inkaredilməz bir həqiqətdir - kim olursansa ol, ilk növbədə gərək daim Böyük Yaradanı-Allahı başının üstündə görməyi bacarasan. Əziz Seyran müəllim, siz sizə bu fitri istedadı, sönməz ilhamı verən Uca Tanrını daim həm öz başınız üstündə, həm də "Köçəköç" romanınızın "Azərbaycan" jurnalının 3-cü sayında dərc edilən 1-ci hissəsində yazdığımız kimi, dünyaya göz açdığınız "Yuxarı Yağlıvənd kəndinin başı üstündə dayanaraq dünyanı oradan idarə etdiyini" görə bilən, duya bilən çox qüdrətli, əyilməz bir sənət fədaisisiniz.

Tanrıya məxsus, müvazinətini qoruyub saxlamaq hər kəsə nəsib olmayan ilahi bir keyfiyyətdir təklik. Onun özünəməxsus həzzi və iztirabları var. Öz aforizmlərinizin birində çox sərrast demisiniz: "El birləşəndə, yazıçı təklənəndə güclü olur". Bu fikriniz mənə də çox doğmadır, ona görə ki, müəyyən mənada mən də onu yaşamışam. Vaxtı ilə, "Azərbaycan" jurnalının 1979-cu ildə çıxan 9-cu sayında dərc edilən şeirlərimin birində acısını yediyim, dadı özünəməxsus olan damağımda qalan bu hissimi ifadə etməyə çalışmışdım:

**... Əməli, sözü saxta,**
**Varlığı, özü saxta;**
**"Dostlar" çoxalan vaxtda**
**Tək qalmaq istəyirəm!**

* * *

**Vətən eşqi canında,**
**İliyində, qanında**
**Tək qalanlar yanında**
**Tək qalmaq istəyirəm!**

İstər möhtəşəm poeziyasında, istər sizinlə dostluqda özünü sübut etmiş gözəl şairimiz Vaqif Bəhmənliyə mənim də böyük hörmətim, məhəbbətim var. Hər birinin özünəməxsus orijinal yaradıcılığı olan iki ürək dostunun yanaşı baxışının qüdrətli bir qələmlə ifadə edilmiş məhsulu olan bu əsər Vaqifi təkcə bir dost kimi deyil, həm də bir vətəndaş kimi, bir sənətkar kimi, bir şəxsiyyət kimi daha dərindən tanımaqda, onun şeirlərinin fəlsəfi dərinliklərini olduğu kimi duya bilməkdə bizə bələdçilik edir.

Bəli, sizin hər ikiniz Azərbaycan ədəbiyyatına məxsusi xidmətlər göstərmisiniz. Sizin hər ikinizin layiqli yeriniz, mövqeyiniz var. Zamanın çətin burulğanları, ağır sınaqları sizin hər ikinizin "qaynar ala gözünüzün odunu", qığılcımını söndürə bilməyib...

Xüsusilə Tanrı siz Seyran Səxavəti sevgi məktubu kimi qüdrətli ədəbiyyatımız vasitəsilə Azərbaycan xalqına göndərib. Yaxşı ki, təbiət etibarı ilə ərköyünlərin ən ərköyünü, tərslərin ən tərsi, sözəbaxmazların ən sonuncusu vaxtında "Dəli Şeytan"ın sözünə baxıb gördüyünüz nəhəng işləri, göstərdiyiniz yalnız əfsanəvi Misir pramidasını qurub-yaradarkən naməlum növ texnikanın göstərə biləcəyi gücdə olan gərəkli xidmətləri göstərmisiniz Azərbaycan ədəbiyyatına. Yaxşı ki, dəli şeytan deyib ki:

**Dəli şeytanı ol eşqin-məhəbbətin,**
**Dəli şeytanı ol bəşəriyyətin!**

Yaxşı ki, siz heç kimin cəsarət edib görə bilmədiyi çox gərəkli işlər görməyə səslənən Dəli şeytanın sözünü eşidib "Bizim arx"la axıb "Subay planetim"i dolaşaraq " ilk-son məhəbbət"ə çevrilən, sevən ürəkləri titrədən şeirinizi yazmısınız. Bu şeir sonralar subay oğlanlar üçün sevdikləri qızın ürəyinə yol tapmaqda buraxılış vəsiqəsinə, sevimli mərhum müğənnimiz Məhəbbət Kazımovun Qu quşu kimi, ömrünün qürub çağı oxuduğu son vida nəğməsinə çevrilərək dildən-dilə düşdü. Bu şeirlər Seyransevərlərin üzünə bir vaxtlar hələ istisi soyumamış məhz "Azərbaycan" jurnalından boylanırdı...

**Sən bir soyuq ulduz, mən gözləri nəm-**
**Eybi yox, mənimçün həmişə varsan.**
**Sıxma ürəyimi, ürək cəhənnəm,**
**Axı sən ordasan, sən sıxılarsan.**

Əziz qələm ustası!

Siz 1975-ci ildən başlayaraq bədii ədəbiyyatın uzaqvuran nəsr, dramaturgiya sahəsində də bənzərsiz bir-birindən dəyərli əsərlər yarada, qüdrətli sənətkar kimi öz sözünüzü deyə bilmisiniz. Poeziyanız kimi, zəngin dil, üslub xüsusiyyətləri, bədii-psixoloji keyfiyyətləri ilə fərqlənən nəsriniz də qəlbimizdən, taleyimizdən xəbər verir.

Xüsusilə kənddə yaşamış adam bu prosesi yaxşı bilir. Bilir ki, süd bişirib damazlıq ataraq qatıq çalarkən qazan təmiz yuyulmayanda, süd lazım olan normada soyumayanda, damazlıq keyfiyyətsiz olanda süd yaxşı uyuşmur, "şeytanqatığı" deyilən bir şey alınır. Siz həyat həqiqətlərini, yaşadığımız canlı həyatdan götürdüyünüz mövzuları bədii sözlə necə deyərlər, yaxşı uyuşduraraq onu mükəmməl bir sənət əsərinə çevirə bilən mahir sənətkarsınız. "Qapıların o üzündə qalan dünya" romanında yaratdığınız - kənddən qonaq gəldiyi böyük şəhərdə heç nə ilə uyğunlaşa bilməyən avamlığı, savadsızlığı hər addımda tənə, gülüş doğuran, "Poçt qutusu"ndakı Novruzəlinin yeni prototipi gənc Gülalı, "Alça çiçəyi" povestində təsvir etdiyiniz özünü canlı radioya çevirərək müxtəlif dillərdə verdiyi "hava haqqında məlumat", "Muğamat konserti" və digər duzlu, məzəli "verilişləri ilə dinləyiciləri güldürüb -şənləndirən fiziki cəhətdən qüsurlu Dəli Cəmil, "Ocaq Daşı" povestində nifrət hədəfinə çevirdiyiniz - tavanda kiçik oyuqlar açaraq nömrələrdə duş qəbul edən çılpaq qadınlara vəhşi hərisliklə baxan, əxlaqsızlığı adına, oğraşlığı varlığına həkk olunan hamam müdiri Baxış, "Daş evlər" romanında-atası müharibədə itkin düşən övladının "görəsən atam haradadır?" - sualına anasının - "bunu ancaq Savalan müəllim bilər" cavabında şəxsiyyətinə və müqəddəs peşəsinə el hörməti, inamı və şəxsi ehtiramınızı ifadə etdiyiniz Savalan müəllim və ən nəhayət "Qaçaqaç"ın xüsusi bölümündə həyata 60 yaşının və qüdrətli poeziyasının



zirvəsindən nəzər salan Vaqif Bəhmənli obrazlarını, surətlərini yaşadığımız canlı həyatdan necə deyərlər borc götürüb sənət cövhəri "içirərək", cilalayaraq həmişəyaşar etmisiniz.

Əziz Seyran müəllim!

Uzaq mənzilli, ağır yüklü "Qaçaqaç" romanınızın çiçəkləyən hissəsidir Vaqifə həsr etdiyiniz. Bu əsərdə nə boyda böyük sevgi, sözlə ifadə edilmiş necə gözəl, necə parlaq şəkillər, obrazlar var İlahi! Hamısı da eyni ünvanlıdır: "Vaqifin üzünün nuru gözqamaşdırandı, mən onu bütün parlaqlığı ilə indi gördüm. Elə bil onun üzünü ana südü ilə yumuşdular...", "İnsan ürəkdən ağlayanda gözlərindən yaş necə tökülürsə, Vaqifin üz-gözündən də sevinc elə tökülürdü...". "Vaqif çıxıb gedəndən xeyli sonra da onun işığı iş otağımdan çəkilməmişdi", "Kitabın (Vaqifin ilk şeirlər kitabının)"üzündən" öpüb üz qabığını üzümə sürtəndə gözümün yumulduğunu da hiss elədim"."...Elə bil o, mənimsə əvəzimə gülürdü-iki adamlıq", "...Adam sevdiyi adamı ilk dəfə necə görübsə elə görmək istəyir"...

Hər bir nəsr əsərinin təsir qüvvəsi, gücü içindəki problemlərin, münaqişələrin hansı gücdə və necə həll olunması ilə müəyyən edilir. Vəzifə qazanmaq, çap olunmaq, ailə həyatı qurmaq və digər sahələrdə Vaqifin də qarşısında duran çətinliklər çox olub ki, onların aradan qaldırılmasında dost məsləhəti, dost köməyi öz gərəkliliyini sübut edib. Əsərdə ən gərgin məqamlardan olan, Zərdabda Rəhiləni Vaqifə alarkən qurduğunuz əməliyyat kimi, gözləmədiyi halda "Sovet kəndi" qəzetinə baş redaktor təyin edildiyinin Vaqifə bildirilməsiylə əlaqədar etdiyiniz gözlənilməz manevrlə "...zəhmət çəkin, özünüz təsəvvürünüzə gətirin" - izahedici sözünüzdən əvvəl məni uşaq kimi hıçqırıb ağlada bilmisiniz

...İstəsək də, istəməsək də həyat öz işindədir. Çox təəssüf ki, bu həyatda öz işində olan, bəzən bizi də ötüb-keçmək qüdrətinə malik adını ilk dəfə sizdən eşitdiyim Eyforiya deyilən bir mərəzimiz də var - höyüllənmə, cızığından çıxma mərəzi... İyirmi illik dostluğu, ürək ağrısı ilə etiraf etdiyiniz kimi, sarsıda bilən lənətə gəlmiş bir mərdimazar...

Mənə elə gəlir ki, telefonunuzun xarab olması dünyanın bir çox dillərinə tərcümə olunub sənətinin - poeziyasının, sözünün əhatə dairəsi Bakcellin, Azercellin əhatə dairəsindən qat-qat çox artmaqda olan Vaqif Bəhmənli ilə Seyran Səxavət dostluğunun, bağlılığının Rabitə Xəttində olan nasazlığı, aşılanmanı üzə çıxardı... Sonluq əvvəlki qaynar münasibətinizlə müqayisədə hətta Vaqifin "Əli Allahın əlinə yetişsə, göylər adamı olsa" belə, yenə də Kamçatka buzundan da soyuq görünür.

Xarab olmuş telefon məsələsini deyə bilmərəm, amma, İslam Rzayev məsələsində özünüz yazdığınız kimi "Cin atına minməkdə" sizi haqsız saymaq olmaz. Yeri gəlmişkən, bunu özünüz də yaxşı bilirsiniz ki, tarixdə döyüş cəngavərlərinin mindiyi, nəfəsinin, dırnağının güclülüyüylə, yüyrəkliyi ilə seçilən Çin atı da olub.(Romanda nağıl dilinin yüyrəkliyi barədə yazarkən "Çin xalqı yüyürür" deyimini paradoks kimi göstərərək "dil heç vaxt yüyürə bilməz" fikrinizə mən də şərikəm) Bəli, hirslənəndə "cin atına minmək"dənsə, hirsi soyutmaq, mənzilə daha tez, daha çaparaq çatmaq üçün Çin atına minmək (Qarabağ atına qovuşana qədər) daha məsləhətdir. Maşallah, Siz həm həyatda, həm də bədii yaradıcılığınızda atını cıdır başına ən tez çapanlardansınız.

Siz "dünyanın özündən çox sözünə vurğun olduğunuzu" bu əsərinizdə də sübut etmisiniz. Əsərdə yerini tapmayan, yiyəsiz qalan, azan, səmtini itirən bir dənə də olsun söz, fikir yoxdur. Bu yazılanları bundan da yaxşı yazmaq mümkün deyil. Siz adamın içinin ən dərin qatlarından qaynaqlanan fərəh, gülüş, eyni qatlardan da dərinliklərə işləyən kədər, qəm, niskil... notları yarada bilmək qüdrətinə malik sənətkarsınız. Mən sizin digər əsərlərinizi də, xüsusilə "Qızıl teşt"i oxuyarkən gözlərim önündə Lev Tolstoyun "Hərb və Sülh", Valentin Rasputinin "Sonuncu şans" romanlarında təsvir olunan təbiət və insan psixologiyasının təbii möcüzəli hissiyyatı görüntüləriylə müqayisə edilə bilən görüntülər canlanıb.

Siz özünüzü sübut edə bildiyiniz - belə sanballı əsərlər yarada bildiyiniz üçün çox xoşbəxt sənətkarsınız.

**Çox sağ olun ki, bədii sənət incilərinizlə bizi güldürə, ağlada və gələcəyimiz haqqında düşündürə bilirsiniz.**

**Mahmud Qacar**